Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Dostluq – iki təndə bir ürək

**30 İyul – Beynəlxalq Dostluq Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Dostluq – iki təndə bir ürək:** 30 İyul – Beynəlxalq Dostluq Günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. – 24 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Dost olmaq istəsən birisiylə sən,
Gərək söz dinləyən bir dost seçəsən.

İnsan ictimai bir varlıqdır. Həyatda yaşamaq üçün başqa insanlara və ünsiyyətə möhtacdır. Bu, ilahi qanundur. Tanrı insanı bu cür fitrətlə yaratmışdır. Dolayısilə, hər bir bəşər övladı həyatın enişli-yoxuşlu yollarında qarşısına çıxan maddi-mənəvi əngəllərin öhdəsindən gəlmək üçün başqa insanların maddi-mənəvi yardımına ehtiyac duyur.

Elə insanlar vardır ki, özümüzü onlara daha yaxın hiss edirik. Çünki onlar bizim dost və yoldaşlarımızdır. Nə vaxt çətinə düşsək, elə o an köməyimizə çatırlar.

Dost sözü fars mənşəli olub “sevilən adam, yoldaş, sevgili, yar” mənalarını verir. Dini ədəbiyyatda bu məfhum “sədaqət, üxuvvət, söhbət” kəlmələri ilə ifadə edilir. Sədaqətli və səmimi insanlara “dost” deyilir. Dostluq insanlar arasında sevgi və səmimiyyətə söykənən qırılmaz münasibətlər məcmusudur. Dostsuz, yoldaşsız yaşamaq çətindir. Həyat dostlar və səmimi insanlarla mənalı olur. Ülvi ideallara könül vermiş insanlar üçün isə dostun yeri bambaşqadır.

30 İyul – Beynəlxalq Dostluq Günüdür. Bu gün bu uğurlu yolun ildönümüdür. Bu yubiley münasibəti ilə yazdığımız bu vəsait iki hissədən ibarətdir. I bölmə *“Dərdini bölüşdür qədirbilənlə”* adlanır və bu günün yaranma tarixindən bəhs edilir. II bölmədə isə *“Dost dosta tən gərək”* adlanır və kitabxanada mövzu ilə bağlı təşkil olunan tədbirlərdən söhbət açılır.

## I Bölmə: Dərdini bölüşdür qədirbilənlə

Bakı, 6 may BMT-nin Baş Məclisi Paraqvayın təşəbbüsü ilə iyulun 30-nu Beynəlxalq Dostluq Günü elan etmişdir. Baş Məclis qurumun üzvü olan ölkələrə bu nəcib təşəbbüsü fəal təbliğ etməyi tövsiyə etmişdir.

Baş Məclis bu münasibətlə yekdilliklə qəbul edilmiş qətnamədə bütün dünya insanlarının ən nəcib və misilsiz hisslərinin təzahürü olan dostluğun aktuallığını və böyük əhəmiyyətini vurğulamışdır.

2011-ci ildə bu günün xalqlar, ölkələr, mədəniyyətlər və ayrı-ayrı şəxslər arasında dostluğun sülhün təmin olunması uğrunda səylər göstərməyə ruhlandıra biləcəyini nəzərə alan Baş Məclis iyulun 30-nu Beynəlxalq Dostluq Günü elan etməyi qərara almışdır.

Baş Məclis qurumun üzvü olan bütün ölkələrə Beynəlxalq Dostluq Gününü öz adət-ənənələrinə uyğun, o cümlədən maarifləndirmə və ictimaiyyətin məlumatlılığını artırmaq üzrə tədbirlər vasitəsilə lazımi qaydada qeyd etməyi məsləhət görmüşdür.

30 İyul – Beynəlxalq statusa malik Beynəlxalq Dostlar Günüdür. 30 iyulda dostlar dostları xatırlayır, onların yardım və rəğbətini yüksək qiymətləndirərək, xüsusi təşəkkürlərini bildirirlər.

Sevgi və dostluq – bunlarsız insanların dünyada mövcudluğu mənasızdır. Öz dostunu qiymətləndirməyi hər kəs bacarmır. Psixoloqların gəldiyi qənaətə görə, bu iki məfhum əsl incəsənətdi, hansı ki, onların üzərində daim işləmək tələb olunur. Leonardo da Vinci dediyi kimi: “Kim ki istəyir onun sadiq dostları olsun, o zaman dostlarının ehtiyac və istəklərinə qarşı mehriban, səbirli, tolerant davranmalıdır”.

Bu tarix dünyada qeyri-rəsmi bayram kimi qeyd olunur. Bütün xalqlar hər zaman ən böyük mənəvi dəyərlərdən biri sayılan dostluğa önəm verir. Təsadüfi deyil ki, müxtəlif ölkələrdə dostluğa həsr olunmuş bayramlar mövcuddur.

Çoxcəhətli münasibətlər toplusu mənəviyyat, mənəvi təmizlik, paklıq adlanır. Bu münasibətlər öz növbəsində sizdən sədaqət, vətəni sevmək və onun müdafiəsinə hazır olmaq, ictimai-faydalı, məhsuldar əməkdə vicdanla iştirak etmək, insanlara, təbiətə, əşyalarara qayğı göstərmək, kollektivdə işləməyi bacarmaq, bir-birinə qayğı göstərmək, dostu-yoldaşı, insanları dar ayaqda qoymamaq tələb edir.

Məşhur yunan riyaziyyatçısı Pifaqor dostu "ikinci mən" adlandırırdı. Böyük Çin filosofu Syun Tszı isə deyirdi: "Kim mənim səhvlərimi düzgün göstərirsə, o mənim müəllimim, kim mənim düz hərəkətlərimə doğru qiymət verirsə, o mənim dostum, kim mənə yaltaqlanırsa, o mənim düşmənimdir".

Dostluqda etibar etməyi, güvənməyi, güzəştə getməyi, tənqid etməyi bacarmaq lazımdır. Çünki dostluğun birinci şərti etibardır. İnamsızlıq başlanan yerdə dostluq qurtarır. Dost tənqidindən incimək olmaz. Aqillər deyiblər: "Düşmənin yaltaq səsi dostun danlağından qorxuludur", "Tərif dostluğa ziyan vurur".

Dünyada dostluqdan yaxşı heç bir şey yoxdur, onsuz yer üzü sanki günəşdən məhrum olardı. Ağac kökləri, insan dostları ilə yaşayır. Dost yoluna gedən yol uzun olmur. Qardaş da dost olsa yaxşıdır. Dostluq, yoldaşlıq anlayışları daha böyük məna ifadə edir. Xalqların, dövlətlərin dostluğu sülhün qorunması deməkdir. Xalqlar və millətlər arasında dostluq və əməkdaşlıq hər bir vətəndaşa həyatı gözəllik qanunları əsasında qurmağa şərait yaradır.

Dostluq yoldaşlıq əsasında yaranır. İnsan öz təbiəti etibarilə ictimai varlıq olduğundan onun tam xoşbəxtliyi sədaqətli

dostlarının xoşbəxtliyi, həmkarlarının səadəti ilə bir yerdə olur. İnsanın yoldaşı çox, dostu isə az olur. Çünki sədaqətli adamları seçmək olduqca çətindir. Onları böyük imtahanlardan, sınaqlardan keçirmək lazım gəlir. Ən çətin və ən ağır günlərdə insanın əlindən tutan, köməyinə gələn dostudur. Gözəl deyimdir: "Dünyada fəxr ediləsi bir şey varsa, o da sədaqətli dostdur", "Dost dostunun kiçik nöqsanlarını ona irad tutmamalı, bütün insanlarda ola biləcək kiçik xətalara göz yummalıdır". Dost iki cür olur: əsl dost, yalançı dost. Biz bunları fərqləndirməyi öyrənməliyik. Çünki insan həyatında əsl, həqiqi dostun əhəmiyyəti əvəzsizdir.

## II Bölmə: Dost dosta tən gərək

30 İyul – Beynəlxalq Dostluq Günü ilə əlaqədar olaraq, kitabxanada bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, oxucularla söhbət, rəsm müsabiqəsi, səhnəciklər, icmal və s. keçirilə bilər. 30 İyul – Beynəlxalq Dostluq Gününü unutmamaq və gənc nəslə, eləcə də şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Bu mövzu ilə bağlı Azərbaycanın ilk qəzet nümunələri, məqalə və kitabları, həmçinin dünya mətbuatından nümunələr sərgidə öz yerini alır. Müxtəlif ədiblərin, görkəmli şəxsiyyətlərə məxsus kəlam və materialları da sərgidə nümayiş oluna bilər. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Mənəvi təmizlik", "Dostluq iki təndə bir ürək kimidir", "Dərdini bölüşdür qədirbilənlə", "Vəfalı dost ol", "Dost var-dövlətdir", "Dost yaman gündə tanınar", "Səmimi ünsiyyət-dostluq budur", "Dost-dosta tən gərək", "Dost-ikinci mən" və s.

# Kitab sərgisi



























♦ Kitabxanada 30 İyul – Beynəlxalq Dostluq Günü ilə əlaqədar olaraq, müxtəlif tədbirlər keçirilə bilər. Belə tədbirlərdən biri də ***“Dost, ikinci mən”*** adlı **səhnəcik**dir. Səhnəcik azyaşlı oxucularla kitabxananın oxu zalında keçirilə bilər. Təyin olunmuş vaxtda oxucular qarşısında səhnəyə çıxan iştirakçılar mövzuya uyğun geyimlər seçirlər. İlk olaraq kitabxanaçı mövzu ilə bağlı məlumatlar verir.

**Kitabxanaçı:** Dostluq – insanlar arasında qurulan təmənnasız və şəxsi münasibətdir. O, inama, qarşılıqlı hörmət və rəğbətə, səmimiyyətə, ümumi maraqlara əsaslanır. Dostluq münasibətlərin yaranması və gələcək inkişafı üçün əsas şərt – hər hansı şəxslər arası rəqabətin olmaması və sosial nərdivanda eyni yerləşmədir. Əsl dostlar, sizi hansısa nailiyyətlərə və əlaqələrə görə yox, sadəcə siz var olduqunuza görə sevəcəklər. Kömək üçün onlar məhz sizə müraciət edəcəklər. Və ya müxtəlif situasiyada sizə kömək edən və dayaq olanda məhz onlar olacaq. Yalnız əsl dost sizi heç vaxt tək qoymaz. Çünki əsl dostluq məhəbbətə oxşayır, bu ürəkləri birləşdirən böyük hissdir. Müasir dünyada belə dost tapmaq çox çətindir, çünki insanlar, öz potensial dostuna yaman çox tələb irəli sürürlər. Ümumiyyətlə, dostları axtarmaq lazım deyil, onlar zamanla özləri tapılacaq. Misal üçün, sizə kiminsə yardımı lazım olanda. Dostun yardımı məhz mənəvi olmalıdır. Belə yardımı hansısa maddi yardımla müqayisə etmək olmaz. İndi isə gəlin səhnəciyə tamaşa edək.

## *Yaxşı dostun təsiri*

*(səhnəcik)*

Şeyx Sədi yaxşı yoldaşın insana olan gözəl təsirini göstərmək üçün bu sözləri söyləmişdi:

– Bir gün gəzərkən ayağımın altında yarı qurumuş bir yarpaq gördüm. Onu əlimə aldım, gözəlliyindən, lətif qoxusundan

xoşhal oldum. Dedim ki, ey yarpaq, sən gülmüsən, ənbərmisən, bu qədər lətif qoxuyursan?

Yarpaq cavab verdi:

– Xeyr, mən gül deyiləm, ancaq bir müddət gül yarpağı ilə dostluq etmişəm.

♦ 30 İyul – Beynəlxalq Dostluq Günü ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, ***"Dost yolunda"*** adlı ***şeir müsabiqəsidir***. Kitabxanaçı ilk olaraq dostluqdan bəhs edən bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır.

**Kitabxanaçı:** Dostluq elə bir sərvətdir ki, kimlər həyatımıza gəlsə də, onun yeri heç vaxt dəyişməyərək qalır. Dostluğa nə qul, nə ağa lazımdır. O, bərabərliyi sevir. Bəzən dostluqlar adi bir səbəbdən bitə bilir. Bizlər bilib-bilmədən dostluğu bitirməyə qarşı olmalıyıq. Nöqsansız dost axtaran dostsuz qalar.

Həyatda bəzi anlar vardır ki, o anlarda dost və düşmənini tanıya bilirsən. Məncə, dost şad gündə tanınır, çünki dar gündə hamı yanında olur. Ancaq sevincli gününə hamı sevinə bilməz. "Dost sarğı kimidir. Yapışdırarkən yaranı sarar amma çıxararkən canı yandırıb yaxar..."

Əsl dostluğun heç bir qaydası yoxdur, dostlar öz qaydalarını özləri qururlar. Çünki bu onların şəxsi münasibətləridir. Əlbəttə ki, dostluqda əsas odur ki, yardım lazım olarkən dostuna dayaq durmaq və yardım etmək gərəkdir. Dostluq həyatın ən gözəl anlamıdır. O qədər dəyərli bir münasibətdir ki… bunu qorumaq üçün sidq ürəkdən çalışmaq lazımdır. Dostluğun ən əsas şərtlərindən biri də vəfalı olmaqdır. Nə baş verirsə versin, dost dosta qarşı hər zaman vəfalı yanaşmalıdır. Dost dostuna heç bir zaman istehza etməməlidir, ona qarşı sərt davranmamalı,

təvazökar olmalı, təkəbbürlükdən uzaq olmalıdır. Mübahisəli halları uzatmamalı, mübahisəli məsələləri ortaya atmamalı, hətta dostu haqqında heç bir zaman pis zənn etməməlidir. Ona bir şeyi vəd edibsə, bunu heç bir zaman unutmamalıdır, yaxud xilaf çıxmamalıdır. Dost dostun həmişə yaxşılığını istəməli, onu həvəsləndirməli və irəli getməyinə dəstək olmalıdır.

*İlk iştirakçı səhnəyə yaxınlaşaraq qiraətli bir şəkildə Məmməd Arazın "Dostum" adlı şeirini söyləməyə başlayır.*

Nəyim varsa - mən payladım dostlara,
O dosta ki, onun yoxdu, mənim çox.
Hərdən-hərdən mən də umdum dostlardan,
O dostdan ki, onun çoxdu, mənim yox.

Dara düşdüm darda görsəm dostumu,
İçimdəcə həzin-həzin ağladım.
Öz yaramın sarığını açıb mən,
Dostlarımın yarasını bağladım.

Qaça - qaça, uça - uça yaşadım.
Kim bilir, mən niye belə incəldim,
Kimsə dostun sərvətini bölüşdü,
Mən dərdini bölüşəndə dincəldim.

İçim - çölüm çox oxunan kitabdır,
Düşünməyin: "yerin - göyün sirri o".
Tanış olun dost sandığım dostlarla:
Biri odu, biri odu, Biri - o...

*İkinci iştirakçı səhnəyə yaxınlaşara Afaq Şıxlının "O günlərdən gələn dostum..." adlı şeirini söyləyir.*

Hərdən mənə elə gəlir -
        ötüb-keçən saatalara qarışaraq
İtmişəmmiş...
Sənsə məni axtarmısan.
Uzaqlarda qalan gözəl günlərimin
        ən dəyərli anlarını
        gəlişinlə,
        bu günümə qaytarmısan.
Hərdən mənə elə gəlir -
        nələrinsə həsrətini çəkirəmmiş,
        qəribsəmiş uşaq kimi...
Sənsə mənə yar olmusan.
Bu nisgilli ürəyimi ovutmaqçün
        bəhanələr düşünməkdən
        bezməsən də,
        yorulmusan...
O günlərdən gələn dostum!
Səni yaman özləmişəm!
Gec də olsa,
        nə zamansa dönüşünü bildiyimçün,
        səbr eləyib gözləmişəm.
Gəncliyimin saflığını,
        şuxluğunu,
        ümidlərin çoxluğunu,
        ürək dolu gülüşləri,
        xoş niyyətli bu bəxtəvər görüşləri
        mənə geri verən dostum!
Nə yaxşı ki, qayıtmısan
        bu amansız zamanıma!
Mənim uzaqgörən dostum!

*Üçüncü iştirakçı səhnəyə yaxınlaşaraq Nizami Gəncəvinin şeirini söyləməyə başlayır.*

Bir olsa yoldaşın, dostun əməli,
Daşdan su çıxardar onların əli.
Nifaq olan yerdə fəlakət də var,
Səadət günəşi birlikdən doğar.

*Dördüncü iştirakçı səhnəyə yaxınlaşaraq Nizami Gəncəvinin dostluğa aid olan şeirini söyləyir.*

Ulularin yolunun gərək qulu olasan,
Ülviyyətə yüksəlib, sən də ulu olasan,
Elə sadiq dost ara, səni darda qoymasın,
Çəkib tordan çıxarsın, səni torda qoymasın.
Yaxşı ad qazanmış gözəl dost ara,
Ondan yetişərsən ağ günə, vara.
Xoş ətirli bir dost yaxşıdır, inan,
Hərzə-hərzə durub danışanlardan.
Bir dostun da olsa eyibli əgər,
Yüzünün adına ləkə yetirər.
Ehtiyatsız bir quş düşərsə tora,
Başqa yüz quşu da sürüklər ora.
Həyat nəyə gərəkdir, bir həmdəmin olmasa?
İnsan çətin yaşayar dosta əmin olmasa.
Varlığına əminsən sən ki hələ həyatda,
Çalış, könül sirdaşı gətir ələ həyatda.

♦ 30 İyul – Beynəlxalq Dostluq Günü ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, ***"İkinci mən"*** adlı oxucularla ***söhbət*** ola bilər. Kitabxanaçı kitabxananın oxu zalına toplaşan oxucularla dostluq haqqında fikirlərini bölüşür.
***Kitabxanaçı:*** Dostluq ülvidir, onda bəşəriyyətin igidlik gücü parlayır. Dost! Bu sözün necə yaranmasına fikir verək. Daş, od,

su, torpaq. Dost sözü bu sözlərin baş hərflərindən yaranmışdır. Dost olan kəs daş kimi möhkəm, dözümlü, od kimi daimi və alovlu, su kimi saf və təmiz olmalı, torpaq kimi güclü və qüvvətli olmalıdır.

Hansı insanın qəlbində məhəbbət, səmimiyyət yuva salıbsa, o insanın dostu çox olar. Qəlbində nifrət, kin olan kəsin dostu olmaz. Hər münasibət qurduğun insana da dost demək olmaz. Bu insanlar içərisində sənin qəlbinə yaxın olan, səni başa düşən, sənin səhvini üzünə deyən insanla dostluq etmək olar. Əsl dost dar gündə tanınar. Əgər o əsl dostdursa, səni darda qoymayacaq, sənin sözünü başqasına deməyəcək, sənin arxanca danışmayacaq. Əsl dost sənin pis günündə də, şad günündə də yanında olmalıdır. Əsl dost bir-birinə güzəştə getməyi, bir-birini bağışlamağı bacarmalıdır. Dostluq fədakarlıqdır. Yaşadığın hər anı bilən, sənə mənəvi dayaq olan, kədərli anında belə üzünü bir anlığa da olsa güldürə biləndir dost. Sənin dərdini dərdi, sevincini sevinci bilən, yaşadığın hər anı səninlə yaşayan etibarlı bir ürəkdir. Həyatda hamıya inam, etibar etmək olmaz dost elə bir şeydir ki, ona gözü bağlı güvənməlisən. Təbii ki, bunun üçün zaman da çox önəmlidir.

Dostluqda da müəyyən sərhədlər gözlənilməlidir. Bu münasibətlər həddini aşmamalıdır. Çünki su da artıq içiləndə insana dərd verir. Atalarımız gözəl deyib: “Güc birlikdədir.” Dostluq tək insanlar arasında deyil, millətlər, xalqlar, dövlətlər arasında da olmalıdır. Bu dostluq nə qədər qırılmaz tellərlə bir-birinə bağlanarsa, insanlar o qədər xoşbəxt və firavan yaşayarlar.

Necə ki, bizim bədxah qonşularımız bu dostluqdan sui-istifadə etdilər. Üzümüzdə bizə dost deyib, ayağımızın altını qazdılar. Belə dostluq dostluq deyil, bu qərəzli dostluqdur. Dostluq qərəzsiz olmalıdır.

Dostu qazanmaq asandır, qorumaq çətin. Atalar sözündə deyildiyi kimi: “Ağac kökləri ilə insan dostları ilə var olar”. Bizim yaxşı və etibarlı dostlarımız nə qədər çox olarsa, köklərimiz də torpaqda o qədər möhkəm olar. Çətinliklərdə bərkiyən dostluq isə uzunömürlü olar.

Dostu olmaq böyük xoşbəxtlikdir. Kimin çox dostu varsa, o həyatda daha inamlı olar. Üzləşdiyi problemlərin öhdəsindən daha asanlıqla gələr.

Dostluğun qırılmaz zəncirlə müqayisə edilməsi təsadüfi deyildir. Həqiqətən də, səmimi, möhkəm dostluq hisslərini heç nə ilə sarsıtmaq mümkün deyildir. İnsanlar arasında hər xoş münasibəti dostluq adlandırmaq olmaz. Həqiqi dostluq illərin sınağından çıxır, bərkdə-boşda, həyatın enişli-yoxuşlu yollarında sınanılır. Əsl dostluq insanlar arasında münasibətlərin uca zirvəsidir. Əgər sən dostluğu yüksək qiymətləndirirsənsə, gərək dostun sandığın şəxsin yolunda hər bir çətinliyə dözməyi bacarasan, sirlərini ondan gizlətməyəsən, heç vaxt yalan danışmayasan. Nahaq deməyiblər ki, dost-dosta tən gərək, tən olmasa, gen gərək. Dostu olmaq böyük xöşbəxtlikdir. Adətən çoxlu dostu olan şəxsi qollu-budaqlı ağaca bənzədirlər. Bu ağac təbiətin şıltaqlıqlarına asanlıqla dözür, onun insanlara daha böyük faydası dəyir. Mən “Dostluq nədir?” sualı ətrafında tez-tez düşünürəm. Mənim qənaətimə görə dostluq-fədakarlıq deməkdir. Asan günün dostluğu vaxtsız açan çiçəyə bənzəyir – onu şaxta, qar vurub soldurur. Çətinliklərdə bərkiyən dostluq isə uzunömürlü olur. “Uzaq Sahillərdə” filmini yada salaq. Zənnimcə, filmin qəhrəmanları Mehdi ilə Veselin arasında yaranan münasibətlər “Dostluq nədir?” sualının konkret cavabıdır. Onlar müharibənin odlu-alovlu yollarını birlikdə keçmiş, aralarında əsl dostluq münasibətləri yaranmışdır.

Biz əsl dostluğu tərənnüm edən çoxlu kitablar oxuyur, filmlərə baxırıq. Həyatda, dostluqda etdiyimiz səhvləri bu

nümunələr əsasında düzəldirik. Mən hər kəsə həqiqi dost arzu edərdim. Arzu edərdim ki, hər kəs dostluqda möhkəm və sədaqətli olsun.

♦ Kitabxanada 30 İyul – Beynəlxalq Dostluq Günü ilə əlaqədar keçirilən tədbirlərdən biri də ***“Yaxşı dost necə olar”*** adlı ***rəy sorğusudur.*** Bunun üçün məktəblilər əvvəlcədən mövzu ilə bağlı məlumatlara yiyələnib, yaxından tanış olurlar. Kifayət qədər məlumat əldə etmiş şagirdlər kitabxanaya gəlib tədbirdə iştirak edirlər. Əvvəlcə kitabxanaçı qonaqlar və iştirakçıları salamladıqdan sonra bu maraqlı tarix haqqında qısa və dəyərli məlumatlar verir. Məlumatdan sonra suallar yazılı və test şəklində iştirakçılara təqdim olunur.

Həmin sualların nümunəsini sizə təqdim edirik:

1. Sənin ilk uşaqlıq dostun kim olmuşdur?
2. Sənin indiki dostlarınla uşaqlıq dostların arasında oxşar və fərqli cəhətlər hansılardır?
3. Özünə necə dost qazanmaq istərdin?
4. Sən necə dostsan?
5. Sən dostlarının olmasından razısanmı?
6. Dostluqda səni qorxudan nə ola bilər?
7. Sən öz dostlarına nə verə bilərsən?
8. Əsl dost necə olmalıdır?
9. Dostunu nə zaman aldadardın?
10. Dostluq haqqında nə deyə bilərsən?

*Tədbirin sonunda dostluğa aid səhnəciklər keçirmək olar.*

♦ 30 İyul – Beynəlxalq Dostluq Günü ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, ***“Dost olmaq istəsən”*** adlı ***disputdur.*** Məktəblilər təyin edilmiş vaxtda kitabxanaya yığışaraq dostluğa aid şeir, məsəl, aforizm, tapmaca və atalar sözləri ilə yanaşı, görkəmli şəxsiyyətlərin dostluq

haqqında olan fikirlərindən söhbət açırlar. Qonaqlar və iştirakçılar öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır.

***Kitabxanaçı:*** Yaxşı insanlarla yoldaşlıq etmək çox önəmlidir. Çünki insan bütün çətinliklərin öhdəsindən təkbaşına gələ bilməz. İnsan öz dünyasının həm yan, həm də orta dirəyi ola bilməz. İnsan dost olmağı bacarmalıdır. Dost olmağı bacaran adam dost seçməyi də yaxşı bilər. "Yaxşı bir dost olub-olmadığınızı heç özünüzə sual vermisinizmi? Yaxud da yaxşı bir dost və ya yoldaş olmaq üçün nələrə diqqət etmək lazımdır? Gəlin bunları birlikdə izah edək.

***I iştirakçı:*** Dostlarınızı yerli-yersiz tənqid etməyin, onların qəlbini qırmayın. Çünki yersiz tənqidlər dostların soyuyub uzaqlaşmasına səbəb olur. Məşhur dövlət xadimi və mütəfəkkir Benjamin Franklin insanlarla uğurlu münasibətlərinin sirrini belə izah edir: "Dəyərsiz adamlar həmişə onu-bunu tənqid edər, elə hey başqalarını günahkar bilər. Mən heç kimin eyibindən, qüsurundan danışmıram. Hər kəsin yaxşı cəhəti var. Mən həmişə həmin yaxşı cəhətlərdən söz açmışam. Budur uğurlarımın sirri".

Yoldaşınız, dostunuz yaxşı bir iş görəndə onu tərifləyin, yalana və mübaliğəyə yol vermədən xoş sözlər deyin. Tərifdən, iltifatdan hamının xoşu gəlir. Yəni hər kəs ona dəyər verən, onu təqdir edən adamlarla dost olmaq istəyir. Haqlı tərif və təqdir insanın özünə inam hissini gücləndirir və onu daha yaxşı insan olmağa sövq edir.

***II iştirakçı:*** Qaşqabaqlı olmayın. Həmişə gülərüz və təbəssümlü olun. Çünki gülərüz insan ətrafına sevinc və nəşə saçar, hamını özünə cəlb edər. İnsanlarla salamlaşın. Hal-əhval tutmağı unutmayın. Səmimi bir salamlaşmaq, ayaqüstü hal-əhval tutmaq dostluq bağlarını möhkəmləndirir. Qüsurlara göz yumun, səhvləri bağışlayın. Hər kəs səhv edə bilər. Əsl fəzilət xəta və qüsurları bağışlamaqdır. Uca Rəbbimiz sevdiyi bəndələrin gözəl

məziyyətləri haqda buyurur: “O müttəqilər ki, bolluqda da, qıtlıqda da mallarını yoxsullara xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər”. Yunus Əmrənin sözləri ilə desək, döyənə əlsiz, söyənə dilsiz olmaq lazımdır.

***III iştirakçı:*** İnsanın sadiq bir dosta ehtiyacı digər ehtiyaclardan heç də əhəmiyyətsiz deyildir. Bir insan dost və yoldaşlarına arxayındırsa, səmimi və vəfalı dostları varsa, demək, başqa məsələlərdə də işləri yolundadır.

Ağıllı adam odur ki, dost-tanışları ilə münasibətləri pozuldumu, vaxt itirmədən incikliyi aradan qaldırır. Ən ağıllı adam isə diqqətli davranıb heç vaxt dostlarını incik salmır.

İnsanlar arasında dostluğun daimi olması onların halal və düzgün işlərdə bir-birini anlayışla qarşılamasından asılıdır. Düşüncə, davranış və münasibətlərdə bir-birini anlayışla qarşılamayan, bir-birinə hörmət eləməyən adamların dostluğu qısa və müvəqqəti olur. Bir insan dostunun dərdini öz dərdi, sevincini də öz sevinci kimi görürsə və bunu qəlbində hiss edirsə, demək, o sədaqətli yoldaşdır. Dostlarının dərdinə və sevincinə şərik olmayanlardan vəfa gözləməyə dəyməz.

***Kitabxanaçı:*** Gəlin indi də iştirakçıların ifasında dostluğa aid şeir, məsəl, aforizm və atalar sözləri, görkəmli şəxsiyyətlərin dostluq haqqında olan fikirlərini dinləyək.

***I iştirakçı:*** Kiməsə bağlanma hissi qarşılıqlı olmaya bilər, amma dostluqda - əsla (Jan Jak Russo: *fransız filosof, yazıçı, bəstəkar).*

Müdriklikdən sonra insanlara edilmiş ən gözəl hədiyyə – məhz dostluqdur ( Fransua de Laroşfuko: *fransız yazıçısı).*

Keçmiş bir dost üçün şikayətlənmək yeni dərdlər əldə etməkdir.

Əsl dost misilsiz xəzinədir: xoşbəxtliyi artırar, dərd-qəmi azaldar.

***

Əgər dostun sənə qarşı çox mehriban olub, demək ki, dostluq artıq pozulur (Uilyam Şekspir: *ingilis yazıçısı, dramaturqu).*

Dostluq var - məqsədi xeyir üçün, dostluq var – məqsədi xoş vaxt keçirtmək üçün.

***

Bir dost kimdir? İki bədəndə var olan tək bir ruhdur (*Aristotel*: *Qədim yunan filosofu).*

Dost olmağa tələsməyin, amma dost olduzsa, bu dostluğa xəyanət etməyin…

***

Biz dostun köməyindən çox, bu köməyi ala bilmək inamına ehtiyac duyuruq (*Sokrat: yunan filosofu).*

Əsl sevgini tapmaq çox çətindir, amma əsl dostluğu əldə etmək ondan da çətindir.

***

Əsl dostluq paxıllıq hissinin nə olduğunu bilməməkdir (*Fransua de Laroşfuko: fransız yazıçısı).*

Hörmət etmədiyiniz insanla heç vaxt dost olmağa çalışmayın (*Çarlz Darvin: ingilis təbiətşünası).*

Qardaş dost olmaya bilər - amma dost həmişə qardaşdır *(Bencamin Franklin: ABŞ-ın dövlət xadimi, yazıçısı və s.)*

***II iştirakçı:*** Dostluğun birinci şərti etibardır (*Jan Labrüer: fransız yazıçısı və filosofu).*

Mənfəət xatirinə qurulan dostluğa "alver" deyilir *(Harold Laski: ingilis siyasətşünası).*

Dostunun sağ ayağı axsayırsa, sən sol ayağınla axsa ki, dostluğunuz daim müvazinətdə olsun *(Jül Renar: fransız yazıçısı).*

Dostlar müxtəlif bədəndə bir ruhdurlar *(Hz.Əli ə.s.).*

Dostluq iki ruhun evlənməsidir, bu izdivacda boşanma, yaxud ayrılığı dilə gətirmək belə günahdır *(Mari Fransua Arue Volter: fransız filosofu).*

Dost rahatlıq verən bir məlhəmdir *(Nizami Gəncəvi: azərbaycanlı şair və mütəfəkkir).*

Müsibətlərin yaxşı tərəfi varsa, o da bizə dostlarımızın kim olduğunu göstərməsidir *(Onore De Balzak:fransız yazıçısı).*

Evin qiyməti ora gələn dostlardan bilinər *(Ralf Emerson: amerikalı şair və filosof.*

Cahil və nadan dostdan ağıllı düşmən yaxşıdır *(Əmir Teymur:Orta Asiyanın dövlət xadimi,sərkərdə, əmir).*

Həqiqi dostu olanın güzgüyə baxmağa ehtiyacı qalmaz *(Karl İmmerman: alman şairi).*

Dostu olmayan bu dünyada qəribdir *(Jozef Köhler: alman şairi).*

İnsanlarla elə davran ki, dostların sənə düşmən olmasın, əksinə, düşmənlərin səninlə dost olsun (*Pifaqor: yunan riyaziyyatçısı və filosofu.*

Mənə hər şeydə mənimlə razılaşan, mən başımı əyəndə başını əyən dost lazım deyil. Ona qalsa kölgəm də dostumdur *(Plutarx:yunan filosofu və yazıçısı).*

Həqiqi dostluqdan başqa, bütün münasibətlər müvəqqətidir *(Roman Rollan: fransız yazıçısı).*

Dostlar iki cür olur: birincisi sizi güldürənlərdir ki, onlara çox etibar etmək olmaz; ikincisi sizi düşündürənlərdir ki, onların qədrini bilmək lazımdır *(Jan Batist Sey: fransız iqtisadçısı*).

Eyibsiz dost axtaran axırda dostsuz qalar (Nəsrəddin Tusi: Azərbaycan alimi və dövlət xadimi).

Dostluq ömrün sonunadək boy atan bir ağacdır *(Corc Vaşinqton:ABŞ-ın ilk prezidenti)*.

***III iştirakçı:*** Bacar dost qazan, düşmən qapısında

***

Baş-başa verməyincə daş yerindən qalxmaz.

***

Bir dəfə gəldin – yoldaş, iki dəfə gəldin – qardaş.

***

Bir gün duz yediyin yerə, qırx gün salam ver.

***

Dostun dostu da dostdur.

***

Dostun evini öz evin bil.

***

Dostun versə qum, al ovcunda yum!

***

Dostunu göstər, sənin kim olduğunu deyim.

***

Yoldan irəli – yoldaş, evdən irəli – qardaş.

***

Dost dosta tən gərək, tən olmasa gen gərək.

***

Müharibə igidi, qəzəb müdriki, ehtiyac isə dostu sınağa çəkir.

(Atalar sözləri)

***IV iştirakçı:*** Dərdini bölüşdür qədir bilənnən,
Vəfalı dost olmaz üzə gülənnən.
Bir adam ki, "sən öl" desə yalannan,
Ya dost olma, ya zəhmətdən incimə,
Dost yolunda boran-qar olacaqdı.

*Aşıq Ələsgər*

# Ədəbiyyat siyahısı

## *Kiçik yaşlı məktəblilər üçün*

**Aslan ilə dovşan.** Dəvə ilə siçan : nağıl. - Bakı : Qələm , 2013. - 5 s. : rəngli şək. - (Hecalı nağıllar).

**Boşboğaz tısbağa**. - Bakı : Beşik, 2008. - 14 s. : rəngli şək. - (Mən və mənim dünyam : "Kəlilə və Dimnə"dən 33 rəvayət).

**Çakıcıoğlu E.** Komşu çoçuğu. - İstanbul : Nemesis kitap, 2014. - 48 s. : renkli ill. - (Bıcırık öykü dizisi ; 6+ yaş grubu).

**Dəyər verirəm. Hörmət** : nağıl-oyun : Fəaliyyət-tamaşa. - Bakı : Altun Kitab, 2014. - 64 s. : rəngli şək. - (Əxlaqi dəyərlər).

**Dost dosta tən** gərək. - Bakı : Letterpress, 2011. - 20 s. : şək.

**Eşşəklə tülkünün dostluğu** : nağıl. - Bakı : Çaşıoğlu, 2008. - 16 s. : rəngli şək. - (Nağıllar aləmi 11).

**Gasemnia Ş.** Puf-puf : nağıl şarı. - Bakı : Qələm , 2013. - 160 s. : rəngli il. - (Davranış qaydaları. 25 nağıl. Nağıl qatarı).

**İki tənbəl**. - Bakı : Çaşıoğlu, 2009. - 8 s. : rəngli il. ; 12 sm + 1 el.op.disk (CD-DA).

**İtin dostluğu** : Mordva xalq nağılı. - Bakı : Altun Kitab, 2013. - 12 s. : rəngli il. - (Mənim ilk kitabım : 4-7 yaş).

**Qəribə tütək** : Bolqar yazıçılarının nağıl və hekayələri. - Bakı : Bakı Universiteti. İqtisad Universiteti, 2002. - 112 s.

**MirMəcidli K.** Keçi balası və Badam ağacı. - Bakı : [s. n.], 2009. - 11 s. - (Yeni Nağıl seriyası 1).

**Mixalkov S.** İki gonbul : nağıl. - Bakı : Altun Kitab, 2009. - 11 s. : rəngli şək. - (Mənim ilk kitabım : 6-7 yaş).

**Salahzadə Ə.** Dost axtaran çəpişin nağılı : nağıl. - Bakı : Beşik, 2009. - 28 s. : rəngli şək. - (Mən və mənim dünyam).

**Şaiq A.** Tıq-Tıq xanım . - Bakı : Altun Kitab, 2013. - 23 s. : rəngli il. ; 20 sm. - (Altun klassika : 6-9 yaş).

**Şeyhi M.** Cuf-cuf : nağıl qatarı. - Bakı : Qələm , 2013. - 64 s. : rəngli şək. - (Davranış qaydaları. 25 nağıl).

**Uayld O.** Nağıllar. - Bakı : Altun Kitab, 2015. - 176 s. - (Hekayə ustaları).

**Yaxşılıqları unutmuram. Vəfa** : Nağıl-oyun : Fəaliyyət-tamaşa - Bakı : Altun Kitab, 2015. - 64 s. : rəngli şək. - (Əxlaqi dəyərlər).

***Yuxarı sinif şagirdləri üçün***

**Axundov A.** Məhəbbət və dostluq : roman. - Bakı : Araz, 2002. - 282 s.

**Butzati D.** Dostlar // İtalyan ədəbiyyatı antologiyası. – Bakı : Şərq-Qərb, 2011. – S. 155-162.

**Düma A.** Üç muşketyor : roman. - Bakı : Çaşıoğlu, 2004. - 512 s. - (Dünya ədəbiyyatı).

**Əfəndiyev İ.** Dağlar arxasında üç dost : roman. - Bakı : Kitab klubu MMC, 2017. - 288 s.

**Məmmədova R.** Dostluq : poeziya. - Bakı : Şirvannəşr, 2006. - 52 s.

**Mirəfsəl Ə.** Fikirlərim, mülahizələrim, tövsiyələrim. - Bakı : Mütərcim, 2007. - 512 s. : rəngli foto.

**Rid M.** Oseola - seminolların başçısı. - Bakı : Altun Kitab, 2014. - 128 s. : il. - (Məktəblinin Kitabxanası. Dünya ədəbiyyatından seçmələr).

**Rodari C.** Çippolinonun başına gələnlər. - Bakı : Çaşıoğlu, 2009. – 256 s.

**Steynbek C.** Siçanlar və adamlar : povest. - Bakı : Qanun Nəşriyyatı, 2016. - 142 s. : foto.

**Şıxəhmədoğlu H.** Zərif duyğular. - Bakı : Adiloğlu, 2003. - 300 s.

**Tven M.** Heklberri Finnin macəraları : roman. – Bakı : Altun kitab, 2013. – 128 s.

**Tven M**. Tom Soyerin macəraları: povest. – Bakı : Çaşıoğlu, 2004. – 184 s.

**Voyniç E. L.** Qırılmış dostluq: Ovod-2 : roman. - Bakı : Qanun, 2011. - 336 s.

**Zeynalov E.** Hekayələr. - Bakı : ADPU, 2007. - 180 s.

# Dostluq – iki təndə bir ürək

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 47
Çapa imzalanmışdır: 16.07.2018
Tirajı:100
Pulsuz